AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

19 oktyabr 2023-cü il
cümə axşamı

1933-cü ildən çıxır
№ 40 (3654)




# Xankəndidə bütövləşən Azərbaycan

## Separatizm üzərində qəti qələbə bölgəyə sülh gətirəcək

**O gün – oktyabrın 15-də Müzəffər Ali Baş Komandan separatçıların son sığınacaq hesab etdikləri Xankəndiyə qalib sərkərdəyə xas qürurla qədəm qoydu. Xankəndi artıq azaddır. Onillərlə separatizmin yuvası olmuş bu qədim şəhərimizin mərkəzində bayrağımız dalğalanır.**



**Xalqa müraciət, xalqa məruzə**

Azərbaycanın Qarabağ münaqişəsini birdəfəlik həll etdiyini Prezident İlham Əliyev bütün dünyaya Xankəndidə, Xocalıda, Ağdərədə, Əsgəranda Dövlət Bayrağını ucaltmaqla bir daha nümayiş etdirdi. Dövlət başçısının Xankəndidə xalqa tarixi müraciəti iki əsrlik münaqişəyə zəfərlə son qoyulduğunu bəyan edirdi. Bu bəyan, həm də Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini bərpa edəcəyinə dövlət başçısı kimi verdiyi sözü, içdiyi andı yerinə yetirdiyinin xalqa məruzəsi kimi səslənirdi.

Prezident qeyd edib ki, iyirmi il bundan əvvəl dövlət başçısı kimi öz vəzifə borcumu yerinə yetirməyə başlayanda işğal altında olan bütün ərazilərdə Azərbaycan Bayrağı ucaltmağı, ərazi bütövlüyünü və suverenliyi bərpa etməyi qarşısına bir nömrəli vəzifə kimi qoyub. Bunun üçün öncə Azərbaycan dünyada öz layiqli yerini tutdu, ordu gücləndirildi, vətənpərvər nəsil yetişdirildi. Nəticə etibarı ilə cəmi 44 gün çəkən Vətən müharibəsi Zəfərlə başa çatdı: **"Xatırlayıram, o vaxt bəziləri sual verirdi: Nə üçün biz o vaxt - noyabrın 10-da müharibəni dayandırmağa razılıq verdik. Bu gün bax, burada durarkən bir daha bildirmək istəyirəm ki, biz hər şeyi vaxtında etməliyik və etmişik. Azərbaycan xalqının böyük əksəriyyəti o vaxt da - noyabrın 10-da və ondan sonrakı dövrdə çox yaxşı başa düşürdü ki, biz istədiyimizə nail olacağıq. İstədiyimiz isə bax, burada dalğalanan Azərbaycan Bayrağıdır".**

Prezident xüsusilə vurğulayıb ki, ulu öndərin 100 illiyini qeyd etdiyimiz ildə Xankəndidə olmağımız böyük rəmzi məna daşıyır. 1987-ci ildə Heydər Əliyev öz vəzifəsindən kənarlaşdırılandan iki həftə keçməmiş erməni millətçilərinin Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycandan alınıb Ermənistana verilməsi ilə bağlı məsələ qaldırdıqlarını deyən Prezident bundan sonra xalqımızın böyük faciələrlə üzləşdiyini bildirib.

Prezident separatçıların aqibəti ilə bağlı da danışıb: **"Bu binada ən ali kürsüdə oturanların bəziləri indi Bakıdadır. Onlar Bakıya gəlmək istəyirdilər, onlar bizi hədələyirdilər, deyirdilər ki, onların tankları Bakı küçələrində olacaq, haqlı çıxdılar. Onların tankları Hərbi Qənimətlər Parkındadır. Onlar deyirdilər ki, Bakıya gəlib çay içəcəklər. Burada da haqlıdırlar. İndi çay içirlər, istintaq təcridxanasında".**

# Birinci vitse - prezidentdən paylaşım

## Müstəqilliyin Bərpası Günü qeyd olunub

Azərbaycan xalqı dövlət müstəqilliyinin bərpasının 32 illiyini qeyd edir. Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Müstəqilliyin Bərpası Günü ilə bağlı paylaşım edib.

Paylaşımda qeyd edilib: "18 oktyabr. Müstəqilliyin Bərpası Günü".

# Türk dünyası birləşir

## Azərbaycan birlik amallarına sadiqdir

Prezident İlham Əliyev oktyabrın 14-də Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatarı qəbul edib.

Görüşdə Türk dünyası xalqlarının bir-biri ilə tarixi bağlılığına söykənən əlaqələrinin genişləndirilməsindən məmnunluq ifadə edilib.

Azərbaycan Prezidenti Türk dünyası xalqlarının bundan sonra da müxtəlif sahələrdə əlaqələri inkişaf etdirəcəyinə ümidvar olduğunu bildirib. Dövlətimizin başçısı Azərbaycanın həmişə Türk dünyasının sıx birləşməsinə öz töhfəsini verdiyini və bundan sonra da Türk dünyasının birliyi amallarına sadiq qalacağını qeyd edib.

# Azərbaycan etibarlı tərəfdaşdır

## Tranzit imkanlarımız fayda verir

Prezident İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün 12-13 oktyabr tarixlərində Qırğız Respublikasında səfərdə olub.

Bişkekdə Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyanın Prezidenti Vladimir Putin ilə görüşü olub.

Növbəti gün Müstəqil Dövlətlər Birliyi Dövlət Başçıları Şurasının iclasında çıxış edən dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan MDB-nin bir çox ölkələri üçün tranzit-nəqliyyat sahəsində etibarlı tərəfdaşdır.

# Rəsmi xəbərlər

- Prezident İlham Əliyev oktyabrın 17-də Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 15 may tarixli 167 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.
- Prezident İlham Əliyev oktyabrın 17-də Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"nda dəyişiklik edilməsi haqqında Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev oktyabrın 14-də "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Özbəkistan Respublikasının Yenidənqurma və İnkişaf Fondu arasında Özbəkistan Respublikasının ərazisində məhdud məsuliyyətli cəmiyyət formasında Azərbaycan–Özbəkistan İnvestisiya Şirkətinin yaradılması haqqında Saziş"in təsdiq edilməsi barədə Sərəncam imzalayıb.

# Şəhər günün mübarək, Füzuli!

## Qarabağ Azərbaycan iqtisadiyyatında təkanverici qüvvəyə çevriləcək



**Məlum olduğu kimi, Prezident İlham Əliyevin iyul ayında imzaladığı Sərəncama əsasən, işğaldan azad edilmiş ərazilər üzrə şəhər günləri təsis edilib. Füzulidə görülən sürətli bərpa və yenidənqurma işlərinin nəticəsi olaraq sakinlər 17 Oktyabr Füzuli Şəhər Gününü doğma yurdlarında qeyd etdilər.**

Qədim şəhərimiz Vətən müharibəsinin 21-ci günü işğaldan azad olunmuşdu. Bununla da cəbhədən qələbənin növbəti müjdəsi gəlmişdi. İndi isə Füzulidə Böyük Qayıdışın müjdələri verilir. Prezident İlham Əliyevin oktyabrın 17-də "Füzuli Şəhəri Günü"ndə şəhərə köçmüş sakinlər və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşməsi bu baxımdan əlamətdar hadisə oldu.

Prezident qeyd edib ki, indi tamamilə yenidən qurulan Füzulidə ilin sonuna qədər təqribən 2 minə yaxın insan yaşayacaq. Böyük Qayıdış Proqramının birinci mərhələsinin sonunda - 2026-cı ilin sonunda rayonda 22 min, bütövlükdə isə Qarabağ və Şərqi Zəngəzurda 140 min insan yaşayacaq.

Əlbəttə ki, bunlar ən minimal göstəricilərdir, qəbul olunmuş Böyük Qayıdış Proqramı uğurla icra edildikcə bir vaxtlar yurdlarından didərgin düşən sakinlər evlərinə dönəcəklər, oralarda həyat yenidən qaynayacaq. Bunun üçün əhalinin məşğulluğunun təmin edilməsi dövlətin əsas məqsədlərindən biridir.

Füzulililər qarşısında çıxış edərkən dövlət başçısı bu məsələyə də xüsusilə toxunaraq qeyd edib ki, bütün layihələrin icrasında məşğulluq məsələlərinə böyük diqqət yetirilir: "Aidiyyəti dövlət qurumları bu məsələ ilə də bağlı ciddi addımlar atır ki, burada yerləşən insanların məşğulluq imkanları da olsun. Şəhərin özünəməxsus məşğulluq imkanları var. Əlbəttə ki, kəndlərdə yerləşən və yerləşəcək vətəndaşlar, ənənəvi məşğulluqla məşğul olacaqlar, dövlət isə öz tərəfindən onlara kömək göstərəcək – texnika ilə, mal-qara ilə, bütün lazımi vasitələri onlara təqdim etməklə. Özünüməşğulluq proqramı icra ediləcək ki, burada həyat qaynasın. Əminəm ki, müəyyən müddətdən sonra Qarabağ Azərbaycan iqtisadiyyatında bir təkanverici qüvvəyə çevriləcək".

Yerinə yetirilən vəsiyyət 2

Narkotiksiz Qarabağ 2

Tarixi öyrənmək və yaşatmaq üçün... 3

Kimdir müqəssir?! 4

# Vətəndaş qəbulu keçiriləcək

## Vətəndaşlar polisin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət edə bilərlər

Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik cənab Vilayət Eyvazov tərəfindən oktyabr ayının 25-də Ağcabədi Rayon Polis Şöbəsinin inzibati binasında Ağcabədi, Ağdam, Bərdə, Laçın və Zərdab şəhər və rayonlarının sakinlərinin qəbulu keçiriləcək.

Qəbula yazılmaq istəyən vətəndaşlar Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı 24.10.2023-cü il tarixədək yaşadıqları ərazinin polis orqanına, habelə DİN-in **mia.gov.az** internet saytı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.

Qəbula gələnlərdən şəxsiyyət vəsiqəsi tələb olunur.

# RESPUBLİKA XƏBƏRLƏRİ

### Dövlət büdcəsi sosialyönümlüdür

Hər il dövlət büdcəsi tərtib edilərkən büdcənin sosialyönümlü olmasına xüsusi diqqət yetirilir. Bunun nəticəsidir ki, 2003-2023-cü illərdə sosial təyinatlı büdcə xərcləri 20 dəfədən çox artıb. Baş nazir Əli Əsədov Bakıda keçirilən "Vətənə, xalqa və dövlətçiliyə misilsiz xidmətin 20 ili" mövzusunda konfransda çıxışı zamanı belə deyib: "Prezidentin rəhbərliyi ilə keçən dövrdə orta aylıq nominal əməkhaqqı 12 dəfə, minimum əməkhaqqı isə 38 dəfədən çox artıb. Aylıq pensiya 18 dəfəyə yaxın, minimum pensiya məbləği isə 14 dəfə yüksəlib".

### Yuxarı gəlirli ölkələrdənik

Prezidentin strateji inkişaf kursunun uğurlu icrası nəticəsində Azərbaycan yuxarı orta gəlirli ölkələr qrupuna daxil olub. Bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov deyib ki, ötən 20 ildə qeyri-neft-qaz iqtisadiyyatı 4 milyard dollardan 41 milyard dollaradək böyüyüb. Şaxələnmə baxımından prioritet olan strateji sahələrdə əlavə dəyər qeyri-neft qaz sənayesində 4,7 dəfə, turizmdə 19 dəfəyədək, informasiya və rabitədə 23 dəfə, nəqliyyat sektorunda 5 dəfəyədək böyüyüb.

### Kursantlarla müqavilə bağlanılacaq

Xüsusi təyinatlı ali təhsil müəssisəsinin bakalavriat səviyyəsinə qəbul ediləcək şəxslərlə daxili işlər orqanlarında xidmət keçmə haqqında müqavilə bağlanılacaq. Bu məsələ parlamentin oktyabrın 17-də keçirilən plenar iclasında müzakirəyə çıxarılan "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsində öz əksini tapıb. Müqavilədə digər məsələlərlə yanaşı, şəxslərin təhsili başa vurduqdan sonra 7 il müddətində daxili işlər orqanlarında xidmət keçməyi öhdəliyi nəzərdə tutulur.

### Qarabağa gələn il üçün vəsait ayrılıb

Maliyyə Nazirliyindən bildirilib ki, 2024-cü ildə Azərbaycanda dövlət büdcəsi xərclərinin 3 milyard 825 milyon manatı və yaxud 10,4 %-i işğaldan azad olunuş ərazilərin yenidən qurulması və bərpası ilə bağlı xərclərin payına düşəcək. Bu ilin 9 ayında da Qarabağa 4 milyard manata yaxın vəsait yönəldilib.

### Böyük Qayıdış davam edir

Oktyabrın 16-da Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən Laçın şəhərinə növbəti köç karvanı yola salınıb. Bu mərhələdə Laçına daha 96 nəfər köçürülüb. Köçürülən ailələr Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşacaqlar. Bununla da Laçın şəhərində 272 ailə, yəni 1052 nəfərin daimi məskunlaşması təmin edilib.

### Taksi fəaliyyəti təkmilləşir

Taksi sifarişi operatoru fəaliyyətinə icazələrin verilməsinə başlanılıb. Artıq 4 şirkət müvafiq sənədləri elektron sistem üzərindən təqdim edərək icazənin alınması üçün Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinə müraciət edib. Agentlikdən bildirilib ki, taksi sifarişi operatorlarının fəaliyyətinin müvafiq icazə əsasında tənzimlənməsi sərnişinlərin təhlükəsizliyi və rahatlığının təmin edilməsi baxımından önəmlidir.

# Heydər Əliyev İli - 2023

## Yerinə yetirilən vəsiyyət

### Ömrünü xalqına bağışlayan Öndər və xalqını qalib edən Lider

**Müstəqilliyimizin yenidən bərpa olunması günlərinə təsadüf edən və hazırda bütün siyasi masaların müzakirə mövzusuna çevrilən hadisələrin bəlkə də birincisi Prezident İlham Əliyevin antiterror tədbirlərindən sonra azad olunan tarixi torpaqlarımıza məhz hakimiyyətə gəlişinin növbəti ildönümündə gerçəkləşən səfəridir.**



Bu tarixi dönüşlə həqiqətin üstündən qara pərdələr qaldırıldı və dünyanın gözündə yazıqlıq etalonuna çevrilən "məzlum xalqın" Qarabağdakı "dövlət"inin "varlığına" son qoyuldu. Əslində onların sonunu gətirən faktı böyük Ermənistan xülyasının yer aldığı xəritəyə nəzər yetirən Müzəffər Ali Baş Komandan bircə cümlə ilə ifadə etdi: "Bunların xəstəliyi bax, budur. Dırnaqarası böyük Ermənistan. Onu bədbəxt eləyən bax budur".

Hələ Vətən müharibəsindən öncə də Prezident İlham Əliyev beynəlxalq hüququn prinsiplərinə əməl etməsi, işğal olunmuş Azərbaycan torpaqlarından qoşunlarını çıxarması və nəhayət öz xalqını gələcək təhlükələrdən qorunması üçün Ermənistan rəhbərliyinə xəbərdarlıq etmiş, daha doğrusu, şans vermişdi.

Xarici havadarlarının üç il bundan öncəyə qədər "Qorxma, səninləyəm" havasına uyan işğalçı indi peşimandır və "Bəlkə də qaytardılar" təsəllisinin məğlubiyyətinə dərman olmadığının fərqindədir.

Məsələ bitib. Azərbaycan suverenliyini təmin edib və bütövlüyünü qüdrətli ordu qoruyur. Birgəyaşayış və reinteqrasiya üçün verilən söz Prezident imzasıdır. Azərbaycan Ermənistandan fərqli olaraq dünya dövlətləri içərisində monoetnik dövlət "statusu" qazanmayıb. Tolerantlıq və ən əsası Azərbaycanda yaşayan bütün xalqları bir bayraq altında birləşməyə, dəmir yumruq olmağa səsləyən bir ideya, bir ideologiya var, o da Azərbaycançılıqdır. Məhz illər sonra işğal olunmuş torpaqları da "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, Azərbaycanlıyam" şüarı, gerçəyi ilə böyüyən Azərbaycan gəncliyi azad etdi.

Sevincliyik, qürurluyuq, həm də bizi bütövlüyümüzə qovuşduran oğulları xatırlayanda kövrəlirik.

Doğma yurdlara qayıdan Füzuli sakinləri ilə görüşdə "Əziz bacılar, qardaşlar, dostlar, bir daha təbrik edirəm. Bu gün həm sevinci, həm kədərli gündür. Qızımızın göz yaşları da təbii ki, heç vaxt dayanmayacaq. Bunu biz bilməliyik, 10 il keçsə də, 20 il keçsə də. Hamımız göz yaşları tökmüşük və tökürük",-deyərək kövrələn Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev kimi...

Böyük şəxsiyyətlərin kövrəlməyi də, sevinci də, kədəri də oxşar olur. Necə ki, illər öncə ulu öndər Heydər Əliyev xalq şairi Səməd Vurğunun "Azərbaycan" şerini deyərkən kövrəlmişdi...

***Hafiz Təmirov***
***polis polkovnik-leytenantı***

# Narkotiksiz Qarabağ

## Təhlükəsizliyi təhdid edən ünsürlər zərərsizləşdirilir

**Qarabağ işğal altında olduğu otuz ilə yaxın bir dövrdə seperatizmin oylağına çevrildi. Separatçılıq isə harada baş qaldırırsa, orada transmilli cinayətkarlıq "çiçəklənir", "qol-budaq" atır.**

Nəzarətsiz zonalar qeyri-leqal ünsürləri "qidalandırır". Yəni bir dövlətə qarşı yönəlmiş cinayətkar qəsddən yeni cinayətlər törəyir.

### Yüz hektarlıq fakt

Neçə illər idi ki, Azərbaycan işğal altında qalmış ərazilərində insan alveri, narkotik maddələrin yetişdirilməsi, terrorçu qrupların hazırlanması kimi bəşəriyyət əleyhinə olan cinayətlərin törədildiyini bəyan edirdi. Qarabağın "boz zonaya" çevrilməsi belə cinayətlərin genişlənməsinə şərait yaratmışdı. Ölkəmiz rəsmi səviyyədə Qarabağ ərazisinin narkotik vasitələrin əsas tranzit məkanı olmasını ələqədar beynəlxalaq təşkilatlar qarşısında gündəmə gətirir, narkotraffikin qarşısını almağa çalışırdı. Hələ o vaxt əməliyyat tədbirləri ilə əldə edilmiş məlumatlar göstərirdi ki, qanunsuz dövriyyədən çıxarılmış narkotik vasitələrin bir hissəsinin kultivasiyası, yəni əkilməsi, yetişdirilməsi və toplanması Ermənistan tərəfindən işğal olunmuş ərazilərdə təşkil edilir. Sonradan həmin narkotik vasitələr qonşu ölkələrə, oradan isə həm də Azərbaycana keçirilir.



İkinci Qarabağ müharibəsinin getdiyi günlərdə düşmən işğalından azad edilmiş ərazilərimizdə erməni hərbçilərinin istifadə etdiyi narkotik vasitələrin tapılması bu barədə narahatlıqların nə qədər əsaslı olduğunu göstərən ilk dəlillər idi. Qanunsuz erməni silahlı birləşmələrinə qarşı həyata keçirilmiş antiterror tədbirlərindən sonra isə bölgədə kütləvi olaraq narkotik tərkibli bitkilərin plantasiyaları üzə çıxdı. Elə bu yaxınlarda polis əməkdaşları tərəfindən Xocalı ərazisində 100 hektarlıq sahədə çətənə kolu plantasiyası aşkarlandı. Fermer təsərrüfatı adı altında fəaliyyət göstərmiş plantasiyada narkotik tərkibli bitkilərə baxış keçirilərkən müəyyən edilib ki, həmin ərazidə çətənə kolunun sativa və digər qarışıq növləri aqrotexniki üsulla xüsusi qulluq olunaraq yetişdirilib. İlkin qənaət bundan ibarətdir ki, narkotik maddələri daha çox yaşayış yerlərinə yaxın ərazilərdə əkib-becərən separatçılar yerli əhalini də bu işlərə cəlb ediblər.

Necə deyərlər, bu da beynəlxalq aləmin görməli olduğu ələhəzrət fakt!

### Transmilli cinayətkarlığa da zərbə vuruldu

Adətən, şübhəli şəxsin üzərindən bir neçə qram narkotikin tapılması onun məsuliyyətə cəlb edilməsinə əsas verir. Bir vaxtlar Qarabağda separatçılıq fəaliyyəti ilə məşğul olanların "üzərindən" isə cəmi bir neçə gün əvvəl "yüz hektarlıq" dəlil-sübutlar götürülüb.

Bu məsələ Azərbaycanın Qarabağ bölgəsindən narkotraffik üçün istifadə edildiyi barədə deyilənlərin öz təsdiqini tapması ilə yanaşı, beynəlxalq narkotik marşrutlardan birinin sıradan çıxarılması baxımından da əhəmiyyət daşıyır.

Azərbaycanın torpaqları üzərində suverenliyini və konstitusiya quruluşunu tam bərqərar etməsi ilk növbədə Azərbaycanın daxili işidir, təbii ki. Bununla belə, antiterror tədbirlərinin nəticəsinin beynəlxalq təhlükəsizliyi təhdid edən terrorçuluq və narkotik qaçaqmalçılığı kimi transmilli cinayətkarlıqla mübarizəyə müstəsna təsirlərini də danmaq olmaz. Bir vaxtlar ölkənin itirilmiş iyirmi faizlik ərazisində nəzarəti ələ almış daxili işlər orqanlarının ilk zərbəni məhz terrorizmə və onun gəlir mənbəyi olan narkotik plantasiyalarına endirməsi bunu deməyə əsas verir.

***Rəşad Mehtiyev***

# Təhlükəsizlik rəqəmsallaşanda...

## Göstəricilər statistikada, peşəkarlıq xidmətdə əksini tapır

Respublika üzrə mühafizəyə cəlb edilən bütün obyektlərdə - yaşayış evlərində təhlükəsizlik sistemi mülkiyyət əleyhinə olan cinayətlərin sipərinə çevrilib. Oğurluq hallarına qarşı profilaktik tədbirləri diqqət mərkəzində saxlayan DİN-in Baş Mühafizə İdarəsi fəaliyyətini ən müasir tələblərə və standartlara uyğun qurub.

Qeyd edək ki, təhlükəsizlik sisteminin imkanlarından yararlanmaqla ötən il mühafizə olunan yaşayış evlərinə və obyektlərə oğurluq məqsədilə edilən müdaxilələrin qarşısı operativ şəkildə alınmış, şübhəlilər "isti izlər"lə saxlanılmış, eləcə də mühafizə polisinin xidməti marşrutlarında cinayət törədən, axtarışda olan, ictimai qaydanı pozan şəxslər müəyyən olunmuşlar.

Bu ilin 9 ayı ərzindəki statistik göstəricilər də deyilənləri təsdiqləyir. Belə ki, ötən müddətdə əməkdaşların sayıqlığı nəticəsində qorunan obyektlərdə 74, o cümlədən 97 digər cinayətlə əlaqədar oğurluğun qarşısı alınarkən 161, habelə axtarışda olan 13 nəfər saxlanılıb. İctimai qaydanı pozan 665 vətəndaş ərazi polis orqanlarına təhvil verilib. Hesabat dövründə Baş İdarə əməkdaşları tərəfindən 12 fakt üzrə silah-sursat, eləcə də 2919 döyüş sursatı aşkarlanıb. Bundan başqa, 26 yanğın hadisəsinin qarşısı alınıb.

Reallıqlar və faktlar, aşkarlanan hüquqazidd əməllərin təhlili göstərir ki, mühafizə edilən ünvanlarda rəqəmsal təhlükəsizlik sistemi ən səmərəli vasitədir.

***T.Əlizadə***

# Tarixi öyrənmək və yaşatmaq üçün…

## Gənclərə dövlətçilik ənənələri və Heydər Əliyev irsi aşılanır

**2023-cü il "Heydər Əliyev İli" - ulu öndər irsinin dərindən öyrənilməsi, geniş təbliği, Azərbaycan tarixi və dilinin, mədəniyyətinin, milli-mənəvi dəyərlərinin yaşadılması ilə əlaqədar keçirilən silsilə tədbirlərin davamı olaraq Polis Akademiyasının I kurs kursantları Heydər Əliyev Mərkəzini ziyarət ediblər.**




Mərkəz Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq məfkurəsinin dərindən öyrənilməsi və tədqiqi istiqamətində fəaliyyət göstərir.

Ekskursiya zamanı kursantlara ulu öndərin Azərbaycana rəhbərliyi dövründə istifadəsində olan avtomobillər, o cümlədən hərbi və mülki geyimləri, iş masası, şəxsi əşyaları, dünya ölkələrinin rəhbərləri tərəfindən aldığı hədiyyələr, eləcə də müxtəlif illərdə layiq görüldüyü orden və medallar nümayiş etdirilib. Heydər Əliyevin həyat və fəaliyyətinin bütün dövrlərini əhatə edən video, foto və arxiv sənədlərinin surətlərini kursantlar maraqla izləyiblər.

Polis Akademiyasında təhsilalanların hərbi vətənpərvərlik ruhunda yetişməsi, habelə 27 sentyabr - Anım Günü və 8 noyabr - Zəfər Günü ilə əlaqədar həyata keçirilən tədbirlər planına uyğun olaraq Polis Akademiyasının I kurs kursantları "Hərbi Qənimətlər" parkını da ziyarət ediblər.

Kursantlar Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ordumuzun 44 gün ərzində düşmən üzərində qazandığı möhtəşəm Zəfəri əks etdirən, düşməndən qənimət götürülən hərbi texnikanın bir qisminə - tanklar, döyüş maşınları, artilleriya qurğuları, zenit-raket kompleksləri, atıcı silahlar və hərbi nəqliyyat vasitələrinə baxış keçiriblər.

# Milli Qəhrəmanın xatirəsi anılıb

## Tariximizdə və taleyimizdə imzası olanlar unudulmur



Azərbaycanın Milli Qəhrəmanı Səfəralı Məmmədovun anadan olmasının 60-cı ildönümü münasibətilə Masallı Rayon Polis Şöbəsinin əməkdaşları onun büstünü ziyarət edib, önünə tər güllər düzərək əziz xatirəsini ehtiramla anıblar.

Səfəralı Məmmədov 1992-ci il fevralın 16-da Xocavənd rayonunun Qaradağlı kənd sakinlərini azğınlaşmış erməni dəstələrindən xilas edən zaman şəhidlik zirvəsinə ucalıb.

Qəhrəmanımızın hər bir gənc polis əməkdaşı üçün örnək ömür yaşadığını qeyd edən tədbir iştirakçıları tariximizdə və taleyimizdə imzası olanların heç vaxt yaddan çıxmayacağını, daim xatırlanacağını bildiriblər.

Qeyd edək ki, S.Məmmədov ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. Masallı şəhərindəki küçələrdən birinə və təhsil aldığı məktəbə onun adı verilib. Oxuduğu məktəbin həyətində büstü qoyulub, haqqında "Qəhrəman polis" adlı sənədli film çəkilib.

*Məhəmməd Rzayev*
*polis kapitanı*

# Hədəflər dəyişmir

## Gələcəyi qorumaq öncə vətəndaş məsuliyyəti, sonra vəzifə borcudur

"Özünəqəsdin ən ağır forması olan narkomaniyanın get-gedə gəncləşməsi, onun yayılmasının ən təhlükəsiz yollarından biri kimi internet üzərindən sərhədlər aşması ölkəmizdə də dərin narahatlıq doğurur. Bu istiqamətdə mübarizə tədbirlərinin kəsərini artırmaq üçün maarifləndirmənin vacibliyi diqqət mərkəzindədir".

Bu fikirlər Baş Narkotiklərlə Mübarizə İdarəsinin təşəbbüsü ilə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində keçirilən maarifləndirici görüşdə səsləndirilib. Baş İdarə əməkdaşları ötən dövr ərzində narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı keçirilən genişmiqyaslı əməliyyat tədbirləri barədə iştirakçılara məlumat verib, "Narkotik vasitələrin, psixotrop maddələrin, eləcə də onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın uğurla icra olunduğunu bildiriblər.

Qeyd olunub ki, hüquq mühafizə orqanları, dövlət və qeyri-hökumət təşkilatları, bir sözlə, gələcəyimizi sağlam görmək istəyən hər kəs narkotiklərlə-bu bəşəri bəla ilə mübarizə aparmaq üçün səfərbər olunub.



Daha bir tədbir Nərimanov Rayon Polis İdarəsinin təşkilatçılığı ilə S.C.Pişəvəri adına humanitar fənlər gimnaziyasında keçirilib.

Tədbirdə çıxış edən polis polkovniki Arzu Heydərov narkomaniyanın cəmiyyət üçün yaratdığı problemlərdən, insan sağlamlığına ziyanından danışıb. O, narkotiklərin ölkəyə gətirilməsi və satışını təşkil edən cinayətkar qrup və dəstələrin ifşası məqsədilə keçirilən əməliyyat-axtarış tədbirləri zamanı şəhər, rayon polis orqanlarının fəaliyyətlərinin əlaqələndirilməsinin səmərəliliyinin artırılması üçün zəruri təşkilati və əməli tədbirlər görüldüyünü diqqətə çatdırıb, gənclərə təhsilə, idmana daha çox maraq göstərmələrini tövsiyə edib. Həmçinin, narkotiklərin satışı, alışı və istifadəsi ilə məşğul olanların məsuliyyətə cəlb olunmaları üçün birgə səylərin vacibliyini önə çəkib.

Görüşdə digər çıxışçılar narkomaniyanın dinindən, irqindən, milliyyətindən, sosial vəziyyətindən asılı olmayaraq hamı üçün eyni dərəcəli təhlükə olduğunu vurğulayıblar.

Tədbirlərin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb, narkomaniyanın fəsadlarından bəhs edən sosial çarx nümayiş etdirilib.

Qeyd edək ki, anoloji tədbirlər digər şəhər, rayon polis orqanları tərəfindən də keçirilib.

*Teymur Əlizadə*
*polis mayoru*

# Polis onu sevindirdi

## Altı yaşlı "doktor"un reallaşan arzusu

"Diqqət, uşaqlar!" adı altında hərəkətin təhlükəsizliyi aylığına həsr olunmuş tədbirdə fiziki qüsurlu şagirdlə dialoq zamanı Bakı şəhər DYP İdarəsinin baş inspektoru, polis mayoru Araz Əsgərlinin "Gələcəkdə kim olmaq istəyirsən?", -sualına:- "Həkim", - deyə cavab verən 6 yaşlı Ədalətin arzusu "Yeni Klinika"nın dəstəyi ilə bir günlük də olsa reallaşıb. Belə ki, onun üçün klinika daxilində keçirilən turda Ədalət "doktora" "Yeni Klinika"nın İctimaiyyətlə və beynəlxalq əlaqələr departamentinin rəhbəri Nuridə Allahyarova bələdçilik edib. Eyni zamanda, o, klinikanın direktor müavini, "Cərrahiyyə və transplantasiya" mərkəzinin rəhbəri Eldar Əhmədovun da qəbulunda olub.

# Bir ayın hesabatı

## "Bazar"ı bağlanan narkotacirləri həbsxana gözləyir

Baş Narkotiklərlə Mübarizə İdarəsi son bir ayda "qara" bazarda dəyəri 5 milyon manat olan 240 kiloqram narkotik vasitə qanunsuz dövriyyədən çıxarıb.

İdarə əməkdaşları son bir ayda qaçaqmalçılıq yolu ilə ölkəyə narkotik vasitələr göndərən mütəşəkkil dəstənin Azərbaycandakı üzvlərinə, eləcə də daxildə bu maddələrin satışını təşkil edən şəxslərə qarşı Bakı və ölkənin digər bölgələrində silsilə əməliyyatlar zamanı 53 nəfəri saxlayıb.




Əməliyyatlar zamanı qanunsuz dövriyyədən "qara" bazarda dəyəri 5 milyon manat olan ümumilikdə 240 kiloqram, o cümlədən 91 kiloqram heroin, 78 kiloqram tərkibi psixotrop maddələrlə zənginləşdirilən marixuana, 40 kiloqram metamfetamin, 31 kiloqram tiryək, həşiş qatranı, kokain, eləcə də digər növdən olan narkotiklər, 4560 ədəd psixotrop tərkibli metadon, lirika, preqabalin həbləri, 162 ədəd kultivasiya yolu ilə yetişdirilən, habelə 4635 ədəd yabanı halda bitən çətənə kolu, bir ədəd odlu silah, çoxlu sayda elektron tərəzilər və narkotiklərin onlayn satışı zamanı istifadə edilən bank kartları çıxarılıb.

Bu sahədə Baş İdarə əməkdaşlarının həyata keçirdikləri sonuncu əməliyyatlar zamanı mütəşəkkil dəstənin üzvləri - Arif Hümbətov, Fərid Baxışov, Mirəli Cəfərli və Mirməhərrəm Əzizli saxlanılıblar. Onlardan ümumilikdə 43 kiloqram narkotik vasitə və psixotrop maddə olan metamfetamin aşkar edilib. Bu şəxslər İrandan qanunsuz yollarla göndərilən narkotiklərin əsas tədarükçülərindən olublar.

Qeyd edilən dövrdə Baş İdarənin cənub bölgəsində keçirdiyi əməliyyatlar zamanı isə ölkə ərazisində narkotiklərin qanunsuz dövriyyəsini təşkil edən daha 5 nəfər - Elxas Əliyev, Zaur Salayev, Sabir Şəfiyev, Vüqar Süleymanov və Əhməd Ömərov da tutularaq istintaqa təqdim ediliblər. Onlardan isə ümumilikdə 63 kiloqram narkotik vasitə və psixotrop maddə aşkar edilib.

*Anar Qafarov*
*polis mayoru*

# Fasiləsiz xidmət

## Nasazlıqları texniki baxış üzə çıxarır

**Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin Zabratda yerləşən Texniki Baxış və Müayinə Mərkəzi 24 saat sürücülərin xidmətindədir. Bu da sürücülərə nəqliyyat vasitələrini daha rahat, gecikmədən lazımi müayinələrdən keçirməsinə hər cür şərait yaradır.**





Mərkəzin baş dövlət avtomobil müfəttişi polis mayoru Kamal Əhmədli bildirib ki, texniki baxışa gələn nəqliyyat vasitələrinin böyük əksəriyyətində əyləc sistemi nasazlığı olur: "Texniki Baxış və Müayinə Mərkəzinin 12 buraxılış qapısında sürücülərə xidmət edilir. Hər buraxılış qapısından eyni anda 4 nəqliyyat vasitəsinin baxışı həyata keçirilir. İlk növbədə nəqliyyat vasitəsi buraxılış məntəqəsinə daxil olarkən yanğınsöndürən, tibb çantası və qəza dayanma nişanı ilə təchiz edilməlidir. Bütün bunlar Nazirlər Kabinetinin müvafiq qaydasına uyğun yerli-yerində olmalıdır. Yanğınsöndürən vasitə minik avtomobili üçün 2 litr, yük avtomobillərində isə 4 litr olmalıdır.

Müayinə xəttinə girən avtomobildə işlənmiş qazların xaricetmə sisteminin qaydasında olması, nəqliyyat vasitəsinin faralarının texniki tələblərə uyğunluğu da yoxlanılır. Bu, günün qaranlıq saatlarında hərəkətdə olarkən sürücünün yolu daha rahat görməsi, nəqliyyat vasitəsini müvafiq zolaq üzrə təhlükəsiz idarəetməsinə kömək edir.

Əksər hallarda sürücülər nəqliyyat vasitələrini texniki baxışa gətirəndə avtomobilin xarici hissələrinin zədəli formada olması, təkər şinlərinin, əyləc sistemlərinin nasaz olması qeydə alınır. Ban hissələrinin zədəli olub-olmaması yoxlanılır, mühərrik, şassi nömrələrinə baxılır, texniki şəhadətnamə ilə eyniləşdirilir. Əgər nömrələr fərqlidirsə, o avtomobil dərhal uzaqlaşdırılır".

Polis mayoru Kamal Əhmədli onu da qeyd edib ki, bir neçə dəfə texniki baxış zamanı əyləc sistemində ciddi nasazlıq aşkarlanıb:

"Bu hallar çox risklidir. Biz bunu aşkarlamasaq, yollarda bədbəxt hadisə baş verə bilər.

Bütün yoxlamalar tamamlandıqdan sonra yekunda nəqliyyat vasitəsinin vəziyyətinin istismara yararlı olub-olmadığı barədə rəy yazılır..."

# Kimdir müqəssir?!

## Tərbiyədən təhlükəyə çevrilən musiqilər

**Musiqinin cinayətlə əlaqələndirilməsi nonsens kimi səslənir. Çünki musiqi, gözəl səslərə çevrilən kamil bir düşüncədir. İncəsənətin bu sahəsi yalnız estetik zövq aşılamır, həm də insanları tərbiyələndirir, mənən cilalayır. Bütövlükdə isə incəsənət əxlaqla elə sıx bağlıdır ki, birini digərindən ayıranda, ortada sənət deyilən anlayışdan əsər-əlamət qalmaz. Yəni, sənətin fəlsəfəsini nəzərə alanda "musiqi hara, cinayət hara?!" sualı haqlı olaraq təəccüblü səslənir.**

Ancaq müasir dövrdə bayağı, zəif poeziyadan qaynaqlanan, üstəlik, içində "küçə kodları" gizlədilmiş kifayət qədər mahnı nümunələri də sadalamaq mümkündür.

### Fakt varmı?

Məsələn, bir neçə ay bundan əvvəl Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi zərərli vərdişlərdən istifadəni, tüfeyli həyat tərzini, mental dəyərlərimizə zidd olan davranışları təbliğ edən, aqressiv hərəkətlərə və özünəqəsdə sövq edən mahnıların siyahısını tərtib etmişdi. Əlbəttə ki, o siyahıda adları çəkilən mahnılardan hər hansı birini götürüb "bu filan cinayətin baş verməsinə", yaxud "filan şəxsin özünə qəsd etməsinə səbəb olub",- demək doğru olmaz. Çünki, ən azı belə bir fakt bizə məlum deyil.

Hərgah, dünyanın kriminal xəbər gündəliyi başqa ölkələrdə faktların olduğunu təsdiqləyir. Misalçün, ABŞ-da rep və hip-hopun bəzi janrları kriminallaşıb, onlar ictimai təhlükəsizliyə təhdid kimi qəbul edilir. Buna görə "Cypress Hill", "Rage Against the Machine" kimi məşhur rok qruplarına bəzi hallarda xüsusi məhdudlaşdırma tətbiq edilib. Akon və Eminemin ifaları zorakılığı təbliğ etdiyinə və təhqiramiz sözlərə görə dəfələrlə qadağan olunub.

Beləliklə, bizdə oxşar fakt olmasa da, psixoloji təsiri inkar edə bilmərik. Hər musiqinin dinləyiciləri var, hər musiqi də insanın düşüncəsini dəyişə bilmək gücündədir.

Bir zamanlar gənclərin mənəvi səviyyəsinin inkişafına və zənginləşməsinə əvəzsiz töhfələr verən musiqi sənətinin "zərərli vərdişlər təbliğ edən" növlərinin meydana çıxmasında hər ağızdan çıxan avazın internet resursları üzərindən yayıla bilmə imkanının rolu az deyil. Hazırda xarici rok-popun təhlükəli hesab olunan janrlarına yerli "musiqili meyxana" da qoşulub. Əksəriyyətinin musiqi tərtibatı çox elementar, ənənəvi olaraq üç və ya dörd harmonik funksiya ilə dəstəklənən sadə, primitiv melodiyalar üzərində qurulan belə musiqilər bir anda geniş kütləyə çatır. Fitri olaraq əruzun səri bəhrinə düşə bilən yüzlərlə gənc özünü meyxanaçı hesab edir və sözlərinin sosial, bəzən hətta, hüquqi məsuliyyətini düşünmədən "sinə dəftərlərini" açıb-tökürlər.

### Nə etməli?

Bu məsələdə çox işə yaraya biləcək senzuranın yoxluğu şəraitində, çarə qalır zərərli vərdişləri təbliğ edən musiqilərin, mahnıların, meyxanaların ilk növbədə ictimai qınaq, ictimai müqavimət görməsinə. Çünki bu "yaradıcılıqlar" heç bir şəkildə müasir gəncliyin mənəvi formalaşmasına kömək etmir, edə bilməz də. Tam əksinə, yetkinlik yaşına çatmayanlar və gənclər arasında hüquq pozuntularının və cinayətkarlığın qarşısının alınması üçün aparılan maarifləndirici tədbirlərə dabandabana zidiyyət təşkil edir. İlk növbədə ona görə ki, bu "mahnılar" kriminal subkulturaların yayılmasına kömək edir. Hüquqi şüuru deformasiya edən, antisosial həyat tərzinin cəlbedici göstərən cinayət subkulturası isə xüsusilə yeniyetmələri və gəncləri hədəf seçir.

Misal üçün, cinayət subkulturasında əsasən "vicdanlı oğru", "həbsdə sınmayan oğlan" kimi cəlbedici obrazlar formalaşdıran, tüstüsü dağlara yayılan nəsnələri təbliğ edən musiqilər, meyxanalar yoxdurmu? Onlar dövlətin qanunlarına zidd olaraq "türmə ədaləti" ideyası üzərində qurulmuş "cinayət romantikası" yaratmırlarmı? İnternet resurslarının təhlili göstərir ki, bu subkultura sosial şəbəkələrdə böyük əksəriyyəti gənclər olan çoxlu sayda izləyicinin marağına səbəb olur. Cinayətkar qrupların nümayəndələrinə xas olan stereotiplər və davranış nümunələri təlqin edən "mahnılar" cinayətkarların dəyərlərini, ənənələrini onların arasında yaymış olmurmu? Bunlar musiqiyə, incəsənətəmi xidmət edir, yoxsa cinayət təcrübəsini yeni nəslə ötürməyə çalışan kriminal aləmin marağınamı?

### Ölçüyə gəlməz zərər

Bu mahnıların auditoriyasını təsəvvür etmək üçün Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin adını çəkdiyi mahnıların təkcə yutub platforması üzərindən izlənmə sayına baxdıq. Rəqəmlər təəccüb, təəssüf və heyrətedicidir. Yalnız spirtli içkinin onun imdadına çatdığını düşünən ifaçının "İçirəm mən" mahnısının baxış sayı 10 milyona yaxınlaşır. Rep janrındakı "Şəhər xuliqanları"na 20 milyon dəfə baxılıb. Gənc ifaçı dinləyicilərinə gecə avtoxuliqanlıq etməklə Bakının altını üstünə gətirməyi "tövsiyə" edir. Nəqarəti "Mənə bi dənə kayf verən şey gətir, özündə yoxdursa gedib al gətir" sözlərindən ibarət olan musiqili-meyxananın baxış sayı 7 milyona çatır... Bu "əsərlərin" bəzilərinin adını belə burda qeyd etmək qeyri-etik görünər deyə siyahını uzatmırıq. Həm də, zənnimizcə, belə musiqilərin gənclərə "tərbiyəvi" təsirinin miqyasını təxmin etməyə bu qədər nümunə də yetər.

*Rəşad Mehtiyev*
*polis baş serjantı*

# Yenilik özünü doğruldur

## İctimai nəzarət qayda pozuntularının qarşısının alınmasına töhfə verir

Bir müddət öncə Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin yeni "Whatsapp" hesabının aktivləşdirilməsi maraqla qarşılanmışdı. Qurumdan bildirilmişdi ki, məqsəd sosial şəbəkələrdə vətəndaşlardan gələn çoxsaylı müraciətlərin vaxtında cavablandırılması, onların yollarda qarşılaşdığı və qeydə aldıqları yol hərəkəti qayda pozuntularına dair video və foto görüntüləri bu hesaba göndərməklə, ictimai nəzarətin həyata keçirilməsində fəal iştirakını təmin etməkdir.

Yollarda təhlükəsizliyin təmin edilməsinə, qəzaların qarşısının alınması və sürücü intizamının yüksəldilməsinə xidmət edən yeniliyin özünü nə dərəcədə doğrultması ilə bağlı əldə etdiyimiz statistika diqqət çəkir.

Belə ki, ötən 3 ay arzində "Whatsapp" hesabına vətəndaşlar tərəfindən daxil olan 270 məlumatdan 253-ü operativ şəkildə araşdırılıb və müvafiq tədbirlər görülüb. Məlumatların əksəriyyəti dayanma-durma qaydalarının pozulması ilə bağlı olub.

Naxçıvan Muxtar Respublikasında isə eyni məqsədlə yaradılan vatsap hesabına 25 fakt daxil olub, 18 protokol tərtib edilib.

# Hədəfi nişan aldılar

## Əməkdaşlarımız Azərbaycan çempionatında qalib oldular



Gənclər və İdman Nazirliyinin və Azərbaycan Atıcılıq Federasiyasının birgə təşkilatçılığı ilə Bakı Atıcılıq Mərkəzində güllə və stend atıcılığı üzrə Azərbaycan çempionatı keçirilib.

Yarışda regionlar da daxil olmaqla müxtəlif idman klublarını təmsil edən 100-dən çox idmançı hər iki növ üzrə fərdi və qarışıq komanda yarışlarında güclərini sınayıb.

Kişilər arasında 10 metrlik hədəfə pnevmatik tapançadan atəş açan DİN-in Daxili Qoşunların İdman komandasının məşqçi-müəllimi, kapitan Ruslan Lunyov I, dairəvi stend atıcılığı üzrə isə Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinin inspektoru, polis baş leytenantı Rigina Meftahətdinova II yeri tutub.

*Ruslan Vəliyev*
*polis baş leytenantı*

# Polis xəfiyyəsi – Ejen Fransua Vidokun memuarları - Sarı pərdəli evlər

## Əməliyyat-axtarış işinin və kriminalistikanın əsasları

**Təhlil və araşdırmalara görə, Vidokun təcrübəyə əsaslanan qeydləri və tövsiyələri metodiki mahiyyət daşımaqla, əməliyyat-axtarış işinin, kriminalistikanın konstitusiyasıdır. Odur ki, əfsanəvi polis xəfiyyəsi Vidokun memuarlarının dərcini davam etdiririk.**

*(Əvvəli ötən sayımızda)*

Sonra mənə tapşırıq verdi. Fossar Parisdə bazardan bulvara gedən yoldakı küçədə yaşayır. Yəni Artua küçəsindən, Montorqel küçəsindən keçməklə Puassoner küçəsindəki bilinməyən mənzildə məskunlaşıb. Onun yaşadığı ev böyük ehtimalla sarı pərdələri olan evlərdən biridir. Bu evdə Fossarın məşuqəsi ilə dostluq edən qozbel dərzi xanım da yaşayır.

Bu məlumatlar o qədər dəqiq deyildi ki, birbaşa ünvana getmək və oğrunu yaxalamaq mümkün olsun. Həmçinin geniş ərazidə sarı pərdəli evləri və qozbel dərzini axtarıb tapmaq da asan deyildi. Məlumatlar qeyri-dəqiq idi, amma tapşırığı nəyin bahasına olur-olsun yerinə yetirmək lazım idi. Ümid edirdim ki, istədadım düz yol tapmaqda kömək edəcək.

İşə haradan başlayacağımı hələ bilmirdim. Amma əvvəlcədən güman edirdim ki, fahişələrlə belə ünsiyyətdə olmalı olacağam. Düşünürdüm ki, bu halda hansı qiyafəni seçməliyəm. Qərara aldım ki, yaşlı, imkanlı və hörmətli bir qoca cənab obrazına girməliyəm. Bir neçə saxta qırış, pudralanmış parik, üçkünc şlyapa, qızıl tutacağı olan əsanın köməyilə bütün qoca qarıların cavan qalan altmış yaşlı xeyirxah bir burjua hesab etdiyi görkəm aldım. Mən tam olaraq Mare küçəsində yaşayan bir varlı cənaba bənzəyirəm. Əmin idim ki, qozbellərin bəyəndiyi, dürüst, ancaq yaxşılıq etməyə çalışan bir cənaba bənzəyirəm. Bu görkəmlə heç bir şübhə doğura bilməzdim.

### Şayiə həvəskarları əsas məlumat mənbəyidir

Bu qiyafədə küçələrdə gəzişməyə və sarı pərdəli evləri axtarmağa başladım. Öz müşahidələrimə o qədər aludə olmuşdum ki, ətrafımda baş verənləri hiss etmirdim, bu cür geyinməsəydim, məni öz şeiri üçün qafiyə, yaxud



obrazlar axtaran şairə bənzətmək olardı. Hətta ən azı 20 dəfə kabrioletin altında qalmaq təhlükəsi ilə üzləşmişdim, ətrafda tez-tez "ehtiyatlı ol, ehtiyatlı ol!" sözləri eşidirdim. Bəzi fayton sürənlər isə tez-tez "kar qoca kənara çəkil" – deyə qışqırırdılar.

Sarı pərdəli evlərin axtarışı bir neçə gün davam etdi, qeyd dəftərimdə 150 nümunə qeyd etmişdim. Amma kim təminat verə bilərdi ki, zəhmətim hədər getməyəcək və yalnız avaralanmaqla məşğul olmuşam? Məgər ola bilməzdi ki, Fossarın gizləndiyi evin pərdələrini dəyişiblər, qırmızı, ağ, yaşıl pərdə ilə əvəz ediblər, yaxud yumağa veriblər? Amma nə etmək olardı? Tale mənə kömək edə, yaxud mane ola bilərdi.

Yenə özümə ürək-dirək verdim, amma özümü bənzədiyim altmış yaşlı qoca kişi üçün 150 pilləkən qalxmaq, yüzlərlə binanın qarşısından keçmək, 700 mərtəbəyə baxmaq asan deyildi. 30 min pillə saymışdım və sağlam ciyərlərim bu çətinliyin öhtəsindən gəlməyə kömək etdi. Ümidliydim ki, qızıl yun axtaran arqonavatlar kimi bütün çətinliklərə sinə gərərək öz qozbel qarımı tapacam. Bir sıra yerlərdə saatlarla gözləməli oldum, ümidliydim ki, axtardığım qarı nəhayət gözümə dəyəcək. Yəqin ki, qəhrəman Don Kixot öz Dulsineyasını bu cür inadla axtarmamışdı. Hər bir dərzi xanımın evinin qapısını döydüm, amma heç biri qozbel deyildi.

Beləcə, bir neçə gün keçdi. Lap katorqaçı həyatı yaşayırdım, bütün günü küçələrdə dolaşır, evə çox yorğun qayıdırdım. Hər gün səhər yenidən başlamaq lazım gəlirdi. Əgər mən sorğu-suallara başlasaydım, bəlkədə hansısa ipucu düz yol göstərərdi, amma mən bununla özümü yandırmaq istəmirdim. Sonda bu cür nəticəsiz axtarışlardan bezərək, başqa üsula əl atdım.

Müşahidə etmişdim ki, qozbel qarıların hamısı çox danışmağı hər şey ilə maraqlanmağı sevirlər. Onlar kvartalda adətən bir nömrəli qeybətçi olurlar, onların iti nəzərlərindən heç nə yayınmır.

*(Ardı var)*

# Təcrübədə təsdiqini tapıb

## Göy rəngin beyinə təsiri

İsveç alimləri beyin fəaliyyətini stimullaşdıran ən güclü vasitə olan qəhvəyə alternativ kimi təəccüblü olsa da göy rəngin olduğunu müəyyən ediblər.

Bunu 12 idman həvəskarının və bir o qədər də vətəndaşın iştirakı ilə keçirilən bir neçə eksperiment təsdiqləyib. Eksperiment zamanı iştirakçılar qarşısında müxtəlif tapşırıqlar qoyulub. Həmin tapşırıqların həlli zamanı iştirakçılara qəsdən mane olunub, yayındırıcı suallar verilib, bir sözlə, fikirləri yayındırılıb. Nəticədə göy rənglə əhatə olunan insanların maneələrə baxmayaraq tapşırıqları daha dəqiq yerinə yetirdikləri bəlli olub.

Təcrübə nümunələri əsasında məlum olub ki, ağ, eləcə də göy rəngin beyinə təsiri, təxminən 240 milliqram miqdarda kofeinin təsirinə bərabərdir.

# Müdriklərin söz xəzinəsi

Başqaları sənin doğrularını yalnış hesab etsə belə, onlardan üz döndərmə.

**Epikür**

Bildiyin halda susmaq ən az bilmədiyin halda danışmaq qədər yanlışdır.

**Platon**

Keyfiyyət əməl deyil, vərdişdir.

**Aristotel**

Əgər dinləməyi öyrənsən, xoş danışmayanlardan belə faydalana bilərsən.

**Plutarx**

Əhəmiyyətsiz saydığımız ən adi hadisələr bəzən həyatımızı dəyişdirə bilər.

**A.Dante**

Bir insanın zəkası verəcəyi cavablardan deyil, soruşacağı suallardan məlum olur.

**Şevalye de Levis**

*Hazırladı:Ruhiyyə Əliyeva*

POLİS

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR: HAFİZ TƏMİROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10390

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik